# BİR CÜT SONA




Ay ana, bu bir cüt sonanın,
Hansına qurban mən olum.
Süzgün baxıb can alanın,
Hansına qurban mən olum.

N ə q ə r a t:

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.

Səhərdən seyrana çıxdım,
Yarı gördüm bağ içində.
Dərər, dərər, dəstə bağlar,
Qızılgül yarpaq içində.

N ə q ə r a t:

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.

Səhər-səhər durar gəzər,
Gümüş kəməri belində.
Təzə doğmuş Aya bənzər,
Hansına qurban mən olum.

N ə q ə r a t:

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.